**ELÇIN MƏMMƏDOV**
***"Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının müəllimi***

# QƏRBİ AVROPADA TARİXİ ETNİK MÜNAQİŞƏ: ŞİMALİ İRLANDİYA PROBLEMİ

Dünyanın bir çox yerlərində olduğu kimi Qərbi Avropa məkanında da tarixi kifayət qədər qədimlərə uzanan etnik siyasi münaqişələr vardır. Həmin münaqişələrin etnik siyasi mahiyyəti etibarilə digərləri ilə uyğun və onları xassələşdirən fərqli tərəfləri mövcuddur. Bəzi hallarda etnik münaqişələr dünyanın böyük güclərinin maraqlarını təmin etmə vasitəsinə çevrilmişdir (2,s.3). Maraq doğuran məsələlərdən biri də ondan ibarətdir ki, Qərbi Avropa məkanında mövcud olan etnik siyasi münaqişələrin bir çoxunda yaranma səbəbi kimi dövlətlərin etnik və dini azlıqlara qarşı dözümsüzlüyü təşkil edir. Halbuki, bu gün avropalılar digər dövlətləri, xüsusən müsəlman və Şərq dövlətlərini milli və dini dözümsüzlükdə günahlandırırlar. Tarix isə bu mövqenin əksini deyir. Belə münaqişələrin birinin timsalında əslində Qərbi Avropa millətləri üçün xas olan fərqli mədəniyyətləri assimilyasiya etmək xüsusiyyətini ortaya çıxarmağa çalışacağıq.

İlk əvvəl onu qeyd etmək lazımdır ki, irlandların ingilis işğalından öncə dövlət təsisatları olmuşdur. İrlandiyada terror hadisələri etnik və dini fərqliliklərin olması və bu fərqliliklərin İngiltərə tərəfindən istifadə edilərək adanın müstəmləkə halına gətirilməsindən qaynaqlanmaqdadır. V əsrdə Əziz Patriarx adlı birisi missioner olaraq gəlmiş və katolik kilsəsi başçılığı ilə İrlandiyada birləşmə hərəkatına rəhbərlik etmişdir. 976-cı ildə Munster Kralı elan edilən Brian Boru 1002-ci ildə özünü İrlandiya kralı elan edir və 1014-cü ildə Vikinglərlə etdiyi müharibədən qalib çıxır. Onun öldürülməsindən sonra krallıq yenidən parçalanar. Bu da ingilislərin İrlandiyaya yönəlmiş olan planlarına cavab verməkdə idi.

Avropa məkanının tarixi etnik siyasi münaqişələrindən biri də Şimali İrlandiyada katolik-protestant münaqişəsidir.Bu münaqişənin tərəfləri ilk baxışda yalnız xristyan dininin iki məzhəbinin təmsilçiləridir. Əslində isə münaqişənin tarixi tərəflərindən biri İngiltərə olmuşdur. XIII əsrdən İngiltərə dövlətinin İrlandiyanı özünə formal olaraq tabe etməsindən sonra buraya ingilis kolonistləri köçürülməyə başlandı. İngilislərin köçürülməsi İrlandiyanın etnik-demoqrafik durumunu dəyişirdi. Etnik vəziyyətin dəyişməsi isə irlandlar tərəfindən müsbət qarşılanmırdı. Çünki bu zaman irlandlar öz tarixi torpaqlarından sıxışdırılmağa başlayırdılar. Fiziki sıxışdırılma isə gələcəkdə bir etnik vahid olaraq irlandların ingilisləşməsinə gətirib çıxara bilərdi.

İlk əvvəl İrlandiyada ingilis üstünlüyünə qarşı yalnız katolikər çıxırdı. Çünki ingilislər protestant etiqadında olan əhaliyə qarşı bir qədər fərqli davranırdılar. Ancaq getdikcə vəziyyət dəyişməyə başladı. Belə ki, ingilislər irlandlar arasında və buraya köçürülən şotlandlar arasında milli özünü təyinin dəyişməsini istəyirdilər. Milli özünü təyin şüurunun itməsi yerli əhalinin mərkəzi İngiltərə hakimiyyətinə qarşı potensial çıxışlarını zərərsizləşdirərdi.

İrlandlar mərkəzi hakimiyyətə qarşı bir neçə dəfə üsyan etdilər. 1641-1652-ci illərdə irlandlar torpaqların müsadirəsinə cavab olaraq ayağa qalxdılar. 1760-1770-ci illərdə irlandların ilk gizli təşkilatları meydana gəldi. («Ağ uşaqlar», «Palıd uşaqları»). 1791-ci ildə Belfastda «Birpləşmiş irlandlar» təşkilatı təsis edildi. 1 yanvar 1801-ci ildə İrlandiyanın parlament muxtariyyəti ləğv edildi. Əslində irlandların bu kiçik muxtariyyət hüququnun da əllərindən alınması müasir etnik siyasi münaqişənin təməllərində müəyyən yer tutdu.

1905-ci ilə gəldiyimiz zaman, Artur Qriffit adlı millətçi bir irlandiyalının "Sinn Feini" (Biz Özümüz) qurması, mübarizənin gələcək illərdəki ölçüsünü dəyişdirmişdir. Sinn Fein partiyası ada hakimiyyətinin irlandiyalıların əlində olduğu birləşmiş bir İrlandiya üçün mübarizə aparmağa başlamışdır.

İrlandlar ilk əvvəl Böyük Britaniya daxilində özünü idarəyə (Home Rull) nail olmaq istəyirdilər. Ancaq Olster protestantlarının ingilis parlamentindəki müqaviməti 1914-cü ilə kimi qanunun qəbulunu uzatdı. 1916-cı ildə «Home rule» tərəfdarları üsyan qaldırdılar. Üsyan çox amansızcasına yatırıldı. İrlandların çıxışlarının şiddətə baş vurulmaqla yatırılması irlandların şüurunda demokratik üsulların effektivliyinə inamı azaltdı. Lakin bütün bunlara baxmayaraq 1919-cu ildə Dublində İrland Parlamenti formalaşdırıldı. İrland Parlamenti ingilsilərin radikal metodlarına cavab olaraq ölkənin müstəqlliyini elan etdi. Bunun cavabında İngiltərə hökuməti yenə də güc tətbiq etdi. İngiltərənin bir daha güc tətbiq etməsi ingilislərə qarşı mübarizə üsullarının da radikallaşmasına gətirib çıxardı.

İrlandiya Respublika Ordusunun tarix səhnəsinə gəlməsi də İrlandiya tarixində bir sıra dəyişikliklərə səbəb olmuşdur. 1919-cu ildə İrlandiya Könüllüləri Birliyi adlarını dəyişdirərək İrlandiya Respublikaçı Ordusu (Irish Republican Army-IRA) etmiş və "Sinn Fein" partiyasının silahlı qanadı olduğunu açıqlamışdır. Proseslərin gedişi nəticəsində İRA getdikcə bir terrorçu təşkilata çevrildi.

Radikal metodlardan bu və ya digər şəkildə istifadə edilməsi Böyük Britaniyanın 26 cənub qraflığının dominionluğunu tanımasına səbəb oldu. 1921-ci ildə irland -ingilis müqaviləsinə görə ölkə İrlandiya dövlətinə və Böyük Britaniyanın tabeçiliyində olan Şimali İrlandtyaya bölündü. 1949-cu ildə İrlandiya müstəqil respublika elan edildi. Olster Böyük Britaniya tərkibində muxtar qurum olaraq qaldı. 1972-ci ildə Şimali İrlandiyanın muxtariyyət statusu ləğv edildi (7). İngiltərə hökuməti bu etnosiyasi münaqişəni ənənəvi üsulla həll etmək istəyirdi. Əslində isə ənənəvi üsulların tətbiqi irlandlarda ingilsilərə qarşı olan inamın da itməsinə gətirib çıxarırdı.

Beləliklə, XX əsrin əvvəllərində irlandların azadlıq uğrunda mübarizəsinin birinci mərhələsi başa çatdı. Ölkənin böyük bir hissəsində sülh bərqərar oldu. Qalan hissəsində isə etnosiyasi münaqişə indi də davam etməkdədir. İki İrlandiyanın mövcudluğu sülhün tam bərqərar olmasına mane olurdu. Ancaq bu uzun əsrlik tarixə malik olan münaqişəni yalnız məzhəb ixtilafları ilə bağlamaq olmaz. Şimali İrlandiyada etnosiyasi münaqişəni şərtləndirən amilləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

**Tarixi ziddiyyətlər**. Özlərini katolik kilsəsinə mənsubluqla identifikasiya edən irlandların azadlıq uğrunda protestant anglikan ingilislərlə mübarizə aparması tarixi yaddaş amilinin güclənməsinə gətirib çıxardılar.

**Ərazi ziddiyytələri**. İrlandların Olsteri digər müstəqil İrlandiyaya birləşdirməkdən ibarətdir. Belə ki, Şimali İrlandiya bütöv İrlandiyanın tarixi hissəsidir.

**Siyasi amillər**. Şimali İrlandiya irlandların özünü təyin etmə hüququnda ifadə olunur. Yeni dövlətin yaranması İRA və bəzi Şin Feyn liderlərinin dövlət rəhbərləri olması ehtimalını artırırdı.

**Sosial –iqtisadi səbəblər**. Britaniyadan İrlandiyaya keçmiş protestant ingilislərin dominantlığı ilə bağlıdır (4,s.49). Bunun əksinə olaraq Şimali İrlandiyada katolik-protestantlar diskriminasiya olundular. Şimali İrlandiya etnosiyasi münaqişənin qalmasında eyni zamanda İRA yaradanlarının narkobiznes, silah ticarətinə olan maraqları da mühüm rol oynayır.

**Psixoloji amillər**. Katolik və protestantların etno-mədəni psixotiplərinin fərqləri ilə bağlıdır.İrland dilinin və mədəniyyətinin diskriminasiyaya uğraması psixoloji amillərin güclənməsinə səbəb olur.

Göründüyü kimi bir çox xüsusiyyətlər Şimali İrlandiyada baş verənləri etnosiyasi münaqişələrin kateqoriyasına aid edilməsinə imkan verir. İrlandiyanın müstəqillik qazanmasından sonra onun əhalisi münaqişə iştirakçısı olmasından çıxmışdır. Amma Britaniya tabeçiliyində qalan hissədə mübarizə davam edir. Qeyd etmək lazımdır ki, Olsterdə vəziyyət qarışıq və çətindir. Belə ki, Olsterdə protestantların sayı katoliklərin sayından çoxdur. Buna görə millətçilər çoxluğun dəstəyindən məhrumdurlar. Şimali İrlandiya iqtisadi cəhətdən İrlandiya Respublikasından daha çox inkişaf etmişdir. Şimali İrlandiya etnosiyasi münaqişəsində bir çox subyektlər – dövlət qurumları, leqal və qeyri-leqal siyasi hərəkatlar və partiyalar həmçinin silahlı birləşmələr iştirak edirdilər. Yəni bu münaqişə ənənəvi olaraq ikiqütblü olmasa da, burada tərəflər yalnız dövlət və separtaçılardan ibarət deyil. Şimali İrlandiyada istər separatçılar, istərsə də yunionistlərin öz siyasi partiyaları vardır(5). Dövlət isə onları ayırmaq funksiyasını öz üzərinə götürmüşdür. İstər protestantlar, istərsə də katoliklər bu münaqişə zamanı bir-birlərinə qarşı terrorçuluqdan istifadə edirlər.

Şimali İrlandiyadakı etnosiyasi münaqişənin əsas iştirakçılarından biri İRA-dır. İRA ən qatı katolik-separatçılardan təşkil olunmuşdur. İlkin mərhələdə, 1920-ci illərdə İRA bir sıra parçalanmalar və yenidənqurmalar yaşayır. 1930-cu illərdə isə İRA fəaliyyətini gücləndirir. 1939-cu ildə İRA rəhbərliyi Britaniya hökümətinə ultimatum göndərdi ki, Olsterdən ingilis qoşunları çıxarılsın. Təbii ki, ingilis höküməti bu tələbi yerinə yetirmədi. İRA qanlı aksiyalarla cavab verdi. İngilislər terrorizm dalğasını İRA-nın rəhbərliyini məhv edərək müvəqqəti yatırdı.

1950-ci illərin ortalarından İRA terror aktlarının yeni mərhələsinə başladı. 1968-1969-cu illərdə vətəndaş hüquqları uğrunda mübarizə birinci plana keçdi. Katolik icması tələb edirdi ki, iş, mənzil və digər hüquqularının təmin olunmasında diskriminasiyaya yol verilməsin. İngiltərə hököməti irlandların tələblərinə Olsterə ordu göndərməklə cavab verdi.

Şimali İrlandiya münaqişəsinin üçüncü mərhələsi Londonda yeni qayğılara səbəb oldu. London katoliklərlə protestantlar arasında münaqişəni həll etmək üçün siyasi institutları da dövriyyəyə cəlb etmək cəhdi göstərdi. Amma yenə də güc yollarına müraciət üstünlük təşkil edirdi.

Dördüncü mərhələdə ənənəvi və modernist metodlardan istifadə edilməyə başlandı. 1985-ci ildə razılaşma əldə edildi ki, Olster əhalisinin əksəriyyəti tərəfdar çıxana qədər bura Birləşmiş Krallığın tərkibində qalacaqdı.

1990-cı illərdə bəzi jurnalistlər ingilis hökumətinin IRA ilə gizli görüşlər keçirdiyini təsbit etdi. Əvvəlcə, ingilis hökuməti bu iddianı rədd etdi. Belə bir ortamda güc tətbiqi əleyhinə olan Katolik Partiyasının (İctimai Demokrat İşçi Partiyası) başçısı Con Hum IRA mənsubları ilə görüşəcəyini açıqladı. Əks təbliğata baxmayaraq Hum IRA ilə görüşdü. Bir neçə il sonra Con Hum Nobel mükafatına layiq görüldü. Onun da fəaliyyətləri nəticəsində sülh prosesi başlandı, ingilis hökuməti İRA terrorçularının bir daha öz əməllərinə geri dönməyəcəkləri təqdirdə əfvinə razılıq verdi. IRA bunu prinsip olaraq qəbul etdi, lakin bu işin həyata keçirilməsi xeyli çətin oldu. 26 iyul 1997-ci ildə IRA ilk ciddi atəşkəsi elan etdi. 28 iyul 2005-ci ildə IRA silahlı mübarizəni tamamilə tərk etdiyini dünyaya açıqladı. 26 Sentyabr 2005-ci ildə də silahlar protestant və katolik keşişlərin gözü qarşısında, lakin gizli bir məntəqədə məhv edildi. Amma bəzi İRA-dan qopan qruplar razılığa tabe olmadılar.

Ən mühüm hadisələrdən biri də 8 May 2007-ci ildə oldu. Protestant siyasətçi və keşiş Yan Pisley, katolik siyasətçi Martın Mak Ginnesi kameralar qarşısında qarşıladı. Hər ikisi də artıq zorakılıq hərəkətlərinin tamamilə bitdiyini və mübarizənin yalnız siyasi yollar ilə ediləcəyini bütün dünyaya açıqladı. İyul 2007-ci ildə isə ingilis ordusu

şiddətin bitdiyinin dəlilləri üzərinə Şimali İrlandiyadan çəkilməsini sürətləndirdi(1). Bu gün Şimal İrlandiyada 40 ilə yaxın sürən zorakılıq nisbi olaraq bitmişdir və tamamilə normal bir həyat yaşanmaqdadır. Şimal İrlandiya sürətlə inkişaf etməkdə olub Avropanın ən inkişaf etmiş yerlərindən biri halına gəlməkdədir.

Şimali İrlandiya münaqişəsinin timsalında onu görmək olur ki, ilk əvvəl heç bir kompromiss qəbul etməyən unitar dövlətlər daha sonra müəyyən güzəştlərə getməyə məcbur olurlar. Yalnız güc yolu ilə məsələnin həlli isə tamamilə mümkün deyildir. Şimali İrlandiya probleminin kökündə də tarixi yaddaşlardan silinməyən işğal amili əsas rol oynayır.

Son olaraq bəzi paralellərin aparılmasına münasibət bildirmək yaxşı olardı. Bəzən bir sıra tədqiqatçıların Şimali İrlandiyada cərəyan edənlərlə Dağlıq Qarabağ ermənilərinin separatçılıq fəaliyyətləri müqayisə edilməkdədir.İstənilən bir müqayisənin aparılması isə təməllərin diqqətə alınması nəticəsində ortaya normal yekunlar qoya bilər. Bizim isə fikrimiz ondan ibarətdir ki, irlandlardan ermənilərin fərqi ondan ibarətdir ki, irlandlar tarixi yerli, ermənilər isə gəlmə əhalidir. Yəni, ermənilər tarixi saxtakarlıq, irlandlar isə tarixi həqiqətlərin bərpası uğrunda mübarizə aparırlar. Ancaq bu iki mübarizənin bəzi metodlarında oxşarlıq vardır ki, bu da terrorizmdən istifadə edilməsidir. İstənilən halda terror metodlarına müraciət edilməsi isə qəbul edilməzdir. Çünki terror siyasi hədəflərin reallaşması istiqamətində günahsız insanların məhvinə gətirir. Amma ermənilərdən də fərqli olaraq irland cəmiyyətinin əksəriyyəti artıq terrorizmdəm üz döndərmişdir.

### *ƏDƏBIYYAT:*

1.İngiltərə ordusu 38 ildən sonra Şimali Irlandiyadan çixir "Dəyərlər" qazeti 30 iyul 2007-ci il
2.Блищенко В.И.,Солнцева М.М. Региональные конфликты и международное право (вторая половина XX-начало XXЫ века ) М. «Городец» 2005, с.3
3.Ландабасо Ангуло А.И., Коновалов А.М. Терроризм и этнополитические конфликты. Книга вторая. Терроризм сегодня. М., 2004. С. 82.
4.Милль Дж.Ст. Англия и Ирландия: пер. с англ. – Харьков: 2005. – 49 с
5.Партии Северной Ирландии http://news.bbc.co.uk/hi/russian/uk/newsid_1325000/1325141.stm
6.Сапрыкин Ю. М., О причинах ирл. восстания 1641, "Вестник МГУ". Серия 9. Ист. науки, 1960, No 4
7.Северная Ирландия: история конфликта http://www.agentura.ru/dossier/uk/irelandconflictstory/

**ЕЛЬЧИН МАММЕДОВ**
***преподователь кафедры «Дипломатии и современных интеграционных процессов»***

**ЭТНИЧЕСКИЙ КОНФЛИКТ В ЗАПАДНОЙ ЕВРОПЕ: ПРОБЛЕМА СЕВЕРНОЙ ИРЛАНДИИ**

Данная статья посвящена одной из важных проблем современности-проблеме Северной Ирландии. Проведен исторический обзор событий, дан анализ ситуации. Использована определенная литература интернет ресурсы. В конце проведен сравнительный анализ.

**ELCHIN MAMMEDOV**
***teacher of chair «Diplomacy and modern integration processes»***

**THE ETHNIC CONFLICT IN THE WESTERN EUROPE: THE PROBLEM OF NORTHERN IRELAND**

Given article is devoted one of the important problems to the present-problem of Northern Ireland. Also, is given the historical review of events is spent, the situation analysis. The certain literature the Internet resources is used. In the end the comparative analysis is carried out.

***Rəyçilər: h.e.d.R.F.Məmmədov, t.e.d.M.B.Fətəliyev.***
***BDU Beynəlxalq Münasibətlər və Beynəlxalq Hüquq fakültəsi Elmi Şurasının 02 aprel 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***